Elm və təhsil nazirinin müavini Həsən Həsənli Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Baş Konfransının 43-cü Sessiyası çərçivəsində təşkil olunmuş "Sabahı bu gün formalaşdırmaq: dayanıqlı gələcək üçün zəruri bacarıqlar" adlı Nazirlər Dialoqunda iştirak edib. Nazirlər Dialoqunda müxtəlif ölkələrin Təhsil nazirliklərinin və beynəlxalq təşkilatların nümayəndələri çıxış edərək yaşıl və rəqəmsal keçidlər, eləcə də gələcək nəsillərin dayanıqlı bacarıqlarla təmin olunması məsələlərini müzakirə ediblər.

Daha sonra elm və təhsil nazirinin müavini Həsən Həsənli konfrans çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib.

Nazir müavini Qırğız Respublikasının təhsil naziri Dogdurkul Kendirbayeva, San-Marino Respublikasının təhsil və mədəniyyət, universitetlər və elmi tədqiqatlar, gənclər siyasəti katibi Teodoro Lonfernini, Qvineya Respublikasının ali təhsil, tədqiqatlar və innovasiya nazirinin müavini Conté Facinet ilə görüşüb. Görüşlər zamanı ölkələr arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.